

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 123 (24.260)

*13 iyul 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədrini qəbul edib



İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib.

Numan Kurtulmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olundu.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, bu təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olublar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi.

Bildirildi ki, yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat Bağında 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib.

Mərkəzi Nəbatat Bağında görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

Xatırladaq ki, son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

**AZƏRTAC**

## R.R.Məmmədovun Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramin Ramiz oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 iyul 2023-cü il*

## H.K.Kərimovun Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hikmət Kərim oğlu Kərimov Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 iyul 2023-cü il*

## *"Evədək optika"* layihəsi uğurla davam etdirilir

Muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin əsasını təşkil edən fiber-optik şəbəkə vasitəsilə bütün yaşayış məntəqələrinə və bir sıra qurumlara kəsintisiz rabitə və internet xidmətləri təqdim olunur. Fiber-optik şəbəkənin genişləndirilməsi evlərə də fiber-optik kabelin çəkilməsinə imkan verir. Cari ilin ilk altı ayı ərzində fiber-optik xətlər üzərindən təmin edilən GPON (Gigabit Passive Optical Network) texnologiyası əsasında Naxçıvan şəhərində həyata keçirilən "Evədək optika" layihəsi çərçivəsində 46 abonentin mənzilinə fiber-optik xətlər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb.




Həmçinin cari ilin ötən dövrü ərzində Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayon mərkəzlərində və kəndlərində də bir sıra qurumlara fiber-optik xətt çəkilişi həyata keçirilib, istismar müddəti ərzində fiber-optik xətt sahəsində yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində mühəndislər tərəfindən operativ tədbirlər görülüb.

Qeyd edək ki, GPON texnologiyasının muxtar respublikanın digər rayon və kəndlərində də həyata keçirilməsi nəzərdə tutulur.

Bunlarla yanaşı, 2023-ci ilin ilk altı ayı ərzində muxtar respublikada 848 abonent yeni stasionar telefon xətti ilə, 2423 abonent isə ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## “Dəstək” Fondunun Himayəçilik Şurasının ilk iclası keçirilib

*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına “Dəstək” Fondunun fəaliyyəti ilə bağlı iclas keçirilib.*

İclasda Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov Fondun gələcək fəaliyyətinə dair planlarından və nəzərdə tutulan məsələlərdən bəhs edib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların müalicə xərclərinin qarşılanması, təhsil və təhsillə bağlı xərclərinin ödənilməsi ilə əlaqədar “Dəstək” Fondunun üzərinə düşən vəzifələr barədə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilovun çıxışı olub, “Dəstək” Fondunun ümumi fəaliyyəti ilə bağlı slaydlar vasitəsilə hesabatı təqdim edilib. Azərbaycan Respublikasının



ərazi bütövlüyü uğrunda gedən hərbi əməliyyatlar nəticəsində yaralanan şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi sahəsində muxtar respublikada həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsində vətəndaş cəmiyyəti təşəbbüslərinin və bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsində Fondun əhəmiyyətindən danışılıb.

Sonra Himayəçilik Şurasının üzvlərinin təqdimatı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sədr müavini və aparatın rəhbəri Anar İbrahimov, AMEA Naxçıvan Bölməsinin sədri, Azərbaycan Respublikasının Əməkdar elm xadimi İsmayıl Hacıyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları – Yazıçılar Birliyinin sədri Asim Əliyev və Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə, həmçinin Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli Himayəçilik Şurasına üzv seçilib.

İclasda şuranın üzvlərindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimovun da çıxışı olub. Qeyd edilib ki, şəhidlər və yaralılara dəstək verilməsi üçün dövlətin xüsusi proqramları olsa da, cəmiyyətin özündə də bu ailələrə dəstək vermək üçün ciddi çağırış var. Məhz bu çağırışı nəzərə alaraq həmin təbəqəyə əlavə dəstəyin göstərilməsi üçün “Dəstək” Fondunun üzərinə xüsusi öhdəliklər düşür. Dəstək tədbirlərini yerinə yetirmək üçün fond iki əsas məsələnin həllinə – fonda vəsaitlərin daha şəffaf və səmərəli şəkildə cəlb edilməsi və ianə etmək istəyənlər üçün şəffaf, açıq və hesabatlılığı olan platforma yaradılmasına xüsusi diqqət göstərməlidir.

İclasda şuranın üzvləri müraciətlərin qəbulu və onlara operativ şəkildə baxılması, həmin şəxslərə Fond vasitəsilə göstərilən dəstək tədbirlərinin onların sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərlə uzlaşdırılması, fiziki və hüquqi şəxslərin Fonda könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımların qəbulunun təşkil edilməsi, Fondun vəsaitlərinin idarə edilməsi və əlavə dəstək tədbirlərinin həyata keçirilməsini təmin edən informasiya sisteminin formalaşdırılması, Fondun vəsaitlərinin idarə olunması ilə bağlı elektron hesabatlılığı, habelə daxil olan və xərclənən vəsaitin məbləği və istiqamətləri ilə bağlı cari məsələləri müzakirə edib, gələcək fəaliyyətə dair təkliflərini diqqətə çatdırıblar.

**Gülcamal TAHİROVA**

## Naxçıvanın gələcək inkişafı prioritet istiqamətlərdəndir

### *Dövlət başçısının cari ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bu məsələyə toxunması bunu bir daha göstərir*

*Məlum olduğu kimi, iyulun 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə cari ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir. Dövlət başçısı bu ilin ötən dövründə ölkəmizdə həyata keçirilən tədbirlərdən bəhs edərkən Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı məsələyə də toxunmuş və qeyd etmişdir ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı onun göstərişi ilə Dövlət Proqramı qəbul edilmişdir. Bu, Naxçıvanın uğurlu sosial-iqtisadi inkişafını qısa müddət ərzində təmin edə biləcək proqramdır. Ölkə başçısı Dövlət Proqramının tam icra ediləcəyinə əminliyini ifadə edərək proqramın öz resurslarımıza əsaslanaraq qəbul edildiyini vurğulamışdır.*

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üçün sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı”, təxminən, bir ay bundan əvvəl – iyunun 5-də təsdiq olunub. Bu proqram indiyədək muxtar respublikada həyata keçirilmiş Dövlət proqramları içərisində daha mükəmməl hazırlanma mexanizmi və əhatəliliyi ilə seçilir. Belə ki, proqramın hazırlanması üçün cari ilin əvvəllərindən muxtar respublikada bir çox sahələr ciddi təhlil olunmuş, mövcud vəziyyət yerində araşdırılaraq qiymətləndirilmiş və bütün bunların əsasında məqsədyönlü qərarlar verilərək qarşıdakı hədəflər müəyyənləşdirilmişdir. Bununla bərabər, proqramın hazırlanmasında mühüm amillərdən biri gələcək hədəflərin müəyyənləşdirilməsində GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlilindən istifadə olunmasıdır. Bu təhlil birbaşa imkan verir ki, proqramda qarşıya qoyulmuş tapşırıqların icrasında ayrı-ayrı sahələrin mövcud vəziyyəti nəzərə alınaraq, ona müvafiq olaraq addımlar atılsın. Ümumilikdə isə bəhs olunan Dövlət Proqramında 11 istiqamət prioritet olaraq seçilmişdir. Bunlar əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin inkişafı, elektrik enerjisi istehsalının və ixracının artırılması, infrastruktur təminatının, sosial sektorun, insan kapitalının inkişafı, institusional inkişaf və ətraf mühitin mühafizəsinin gücləndirilməsidir.

Ölkə başçısının müşavirədə səsləndirdiyi mühüm fikirlərdən biri də bu idi ki, Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi “yaşıl enerji” zonasına çevrilməsi qarşıya mühüm məqsəd kimi qoyulub: ***“…orada Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi “yaşıl enerji” zonasına çevrilməsi məsələsi mənim tərəfimdən qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. Orada günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur – ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını “yaşıl enerji” ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də “yaşıl enerji”ni ixrac edəcəyik”.***

Qeyd edək ki, hesablamalara görə, Naxçıvanın, eləcə də Qarabağ və Şərqi Zəngəzurun bərpa olunan enerji mənbələri üzrə ümumi texniki potensialı 15 qiqavat təşkil edir. Bunu da vurğulayaq ki, əgər Qarabağ və Şərqi Zəngəzurun “yaşıl enerji” zonasına çevrilməsi layihəsi Vətən müharibəsindən sonra qəbul olunsa da, Naxçıvanın energetika sisteminin, xüsusilə bərpa olunan enerji mənbələri hesabına qurulması konsepsiyası dövlət başçısı cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin ilk illərindən qarşıya məqsəd kimi qoyulub. Belə ki, hələ 2004-cü ildə qəbul olunmuş “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”na əsasən enerji təminatı sahəsində resurs əvəzləyici potensial əldə olunması strategiyası həyata keçirilir. Həmin proqramda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə, muxtar respublikada orta, kiçik, mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur. Bu işin təşviqi olaraq bərpa olunan enerji mənbələrinin hasilatı üçün texnoloji avadanlıqların istehsalı Naxçıvan Muxtar Respublikasında qurulmalıdır. Ötən dövrdə bu sahədə ciddi addımlar atılmış, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilmişdir. Xüsusilə 2006-cı ildə Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları istifadəyə verilməsi muxtar respublikanın energetika sisteminin yaxşılaşdırılmasına öz töhfəsini vermişdir. Növbəti illərdə isə bu işlərin davamı olaraq Babək, Kəngərli və Şərur rayonlarında müxtəlif gücə malik Günəş, Culfa rayonunda isə Külək Elektrik stansiyalarının tikilərək istismara verilməsi muxtar respublikada bərpa olunan enerji mənbələrində enerji istehsalının həcmini xeyli yüksəltmişdir.

Bu il fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvanın “yaşıl eneji” potensialına xüsusi olaraq toxunması və muxtar respublikada ən azı 500 meqavatlıq günəş elektrik stansiyasının tikintisi ilə bağlı fikirləri isə bu qədim Azərbaycan diyarının mövcud enerji potensialından istifadəni daha da aktuallaşdırmışdır. Ötən dövrdə bununla bağlı yaradılmış işçi qrupunun qiymətləndirmələrinə görə, muxtar respublikada, təxminən, 8 min hektardan çox ərazinin bərpa olunan enerji mənbələri stansiyalarının tikilməsi üçün tam şəkildə yararlı olması görüləcək işlərin həcmini təsəvvür etməyə imkan verir. Bu sahədə işlərin davamı kimi ötən ay Bakı Enerji Həftəsi çərçivəsində Naxçıvan şəhərində xüsusi sessiyanın keçirilməsi də təsadüfi deyildi. Sessiyanın gedişində “Total Energies” və “Nobel Energy Management” şirkətləri ilə ümumi gücü 900 meqavat olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədlərinin imzalanması, həmin gücün 650 meqavatının məhz Naxçıvanda yaradılmasının nəzərdə tutulması yaxın gələcəkdə Naxçıvanın “yaşıl enerji” şəbəkəsini xeyli genişləndirəcəkdir.

Həyata keçirilən tədbirlərin mahiyyətində həm də bu durur ki, Naxçıvan Azərbaycanın energetika sisteminə inteqrasiya etməklə ölkəmizin digər bölgələrində, xüsusilə Qarabağ və Şərqi Zəngəzurda istehsal olunan “yaşıl enerji”nin də ixracat qovşağına çevrilir. Təsadüfi deyil ki, “Cəbrayıl” enerji qovşağının yaradılması elektrik enerjisinin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana, oradan Türkiyəyə, sonra isə Avropaya ötürülməsinə imkan yaradacaq. Bununla da, Naxçıvan “yaşıl enerji”nin istehsalı və istehlakı ilə bərabər, həm də ixracında əsas marşruta çevriləcək. Bütün bunlar isə muxtar respublikanın hərtərəfli inkişafında mühüm rol oynayacaq.

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Muxtar respublikada torpaqların su ehtiyatının yaxşılaşdırılması mütəmadi olaraq davam etdirilir

*Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin iyun ayı ərzində suvarma mövsümünü mütəşəkkil şəkildə davam etdirmək məqsədilə cəmiyyətin tabe idarələri tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüşdür. Hidrotexniki qurğularda təmir işləri aparılmış, anbarlara suyun yığılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilmişdir. Belə ki, muxtar respublikanın mövcud su anbarlarında 2023-cü ilin iyun ayının sonuna 122,27 milyon kubmetr su ehtiyatı toplanmışdır. Su istifadəçilərinə iyun ayı ərzində 33,51 milyon kubmetr su verilmiş, bunun müqabilində 27 min 307 hektar torpaq sahəsi suvarılmışdır.*

2023-cü ilin iyun ayı ərzində 1,39 kilometr istiqamətləndirici bənd, 10,27 kilometr beton və torpaq kanallar, 16,88 kilometr ara arxlar, 1,2 kilometr kollektor lildən təmizlənmiş, 0,25 kilometr içməli su xətti çəkilmiş, 1,52 kilometr mövcud içməli su xətlərində, 0,11 kilometr kanalizasiya xətlərində, 5,34 kilometr suvarma boru xətlərində, 1,24 kilometr təzyiqli boru xətlərində, 0,96 kilometr isə kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir. Belə ki, torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar lildən təmizlənmişdir. Şərur rayonunda Xələc kollektorunda 0,9 kilometr, Babək rayonunda Yarımca nasos stansiyasının kollektorunda 0,2 kilometr, Sədərək rayonunda Heydərabad-“Şir arxı” kollektorunda isə 0,1 kilometr lildən təmizləmə işləri aparılmışdır. Görülən işlər nəticəsində Şərur rayonunda 11 hektar, Babək rayonunda 6 hektar, Sədərək rayonunda isə 0,8 hektar olmaqla, ümumilikdə, 17,8 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Torpaq sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Şərur rayonunda Arpaçay selovunda 0,3 kilometr, Babək rayonunda Zeynəddin selovunda 0,3 kilometr, Naxçıvançayda 0,15 kilometr, Sirab selovunda 0,34 kilometr, Qahab selovunda isə 0,3 kilometr olmaqla, 1,09 kilometr seləqarşı istiqamətləndirici bənd tikilmişdir.

Yaşıllıq zolaqlarının suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Babək rayonu ərazisində 4,1 kilometr, Naxçıvan şəhəri ərazisində isə 0,5 kilometr olmaqla, ümumilikdə, 4,6 kilometr mövcud yaşıllıq zolaqlarının suvarma boru xətlərində təmir-bərpa işləri aparılmışdır.

Nasos stansiyalarında və təzyiqli boru xətlərində cari təmir işləri davam etdirilmişdir. Şərur rayonunda “Zeyvə-1”, “Ağbulaq-1”, “Həmzəli-2”, “Qorçulu”, “Fərhad arxı” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,41 kilometr, Babək rayonunda “Araz-1”, “Araz-2”, “Sirab”, “Nehrəm” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,18 kilometr, Şahbuz rayonunda “Daylaqlı”, “Əcəmi-1”, “Şahbuzkənd” nasos stansiyalarının və Şahbuz şəhər subartezian quyusunun təzyiqli boru xətlərində 0,12 kilometr, Culfa rayonunda “Culfa-1”, “Gülüstan” nasos stansiyalarının və Culfa şəhər içməli su xəttinin təzyiqli boru xətlərində 0,2 kilometr, Sədərək rayonunda “Sədərək-1”, “Sədərək-2”, “Sədərək-3”, “Sədərək-4” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,15 kilometr, Kəngərli rayonunda “Qıvraq-1” ,“Kərki”, “Şahtaxtı” nasos stansiyalarının təzyiqli boru xəttində 0,14 kilometr, Naxçıvan şəhəri ərazisində olan “Sərhəd diviziyası” nasos stansiyasının təzyiqli boru xəttində isə 0,04 kilometr təmir-bərpa işləri aparılmışdır.

Naxçıvan şəhəri, Babək və Kəngərli rayonlarının 8300 hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün “Qaraçuq-1” nasos stansiyası ərazisində Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının tikintisinin davam etdirilməsinə başlanmışdır.

2023-cü ilin iyun ayı ərzində 7 kəhrizdə cari təmir işləri başa çatdırılmış, 1 kəhrizdə isə təmir işləri davam etdirilmişdir. Ay ərzində kəhrizlərdə 315 metr kürə təmizlənmiş, 12 metr saybənd hörülmüşdür. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 7 ədədinə yeni nasos quraşdırılmaqla 74 ədədi təmir olunmuşdur. Bundan əlavə, Babək rayonunun Cəhri qəsəbəsində içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 1 subartezian quyusunun qazıntı işləri başa çatdırılmışdır.

Cəmiyyətin Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyuların Təmiri İdarəsinin təmir sexi tərəfindən 2 ədəd nasos rotoru təmir edilmiş, 160 ədəd nasos hissəsi hazırlanmışdır.

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurulması” layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 48 evin içməli su xəttinə, 30 evin isə kanalizasiya xəttinə birləşməsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

Müasirləşən kəndlərimiz

# Həmzəli və Axura kəndlərində yaradılan müasir şərait sakinlər tərəfindən rəğbətlə qarşılanır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət sayəsində ölkəmizin beynəlxalq aləmdə mövqeyi daha da möhkəmlənib, inkişaf dinamikasında ciddi keyfiyyət dəyişiklikləri baş verib, aparılan hərtərəfli islahatlar respublikamızın gələcək inkişafı üçün geniş perspektivlər açıb. Azərbaycan 2023-cü ildə ictimai-siyasi sabitlik şəraitində sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb, bu işlər uğurla davam etdirilməkdədir. Bunu ölkəmizin bütün regionlarında görmək olar.*

Qədim diyarımız Naxçıvan da belə inkişafın ön sıralarında özünə yer alıb. Ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” bu istiqamətdə atılan daha bir addım kimi dövlət başçısının qədim diyarımıza davamlı qayğısının ifadəsidir.







Qeyd edək bu gün Naxçıvandakı quruculuq, tikinti, abadlıq işləri birbaşa ölkə başçısının respublikamızda apardığı siyasətin tərkib hissəsidir. Onu da vurğulamaq lazımdır ki, aparılan abadlıq, quruculuq işləri nəinki şəhərlərdə, rayon mərkəzləri ilə yanaşı, ən ucqar dağ və sərhəd kəndlərində də geniş şəkildə həyata keçirilir. Şərur rayonunun Həmzəli və Axura kəndləri də belə diqqət və qayğı hesabına yeni, müasir yaşayış məntəqələrinə çevrilib. Məlumat üçün bildirək ki 2022-ci ilin mart ayında başlayan və cari ilin fevral ayında quruculuq işləri başa çatan Həmzəli və Axura kəndlərində bir çox abadlıq işləri aparılıb, məktəb binası əsaslı təmir olunaraq yenidən müəllim və şagirdlərin istifadəsinə verilib. Biz də bu yaxınlarda həmin kəndlərdə yaradılan şəraitlə daha yaxından tanış olmaq üçün üz tutduq Şərura. Öncə Həmzəli kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Şəmsi Qəribovla görüşdük. Onunla yeni obyektləri gəzdik. Bunlardan ən böyüyü kənd tam orta məktəbinin binasıdır. Məktəbin ingilis dili müəllimi ***Samil Qəribov*** pedaqoji kollektivə göstərilən qayğı üçün minnətdarlığını bildirərək deyir ki, yeni tikilmiş məktəb binasında geniş və işıqlı sinif otaqları, müasir standartlara cavab verən kimya-biologiya və fizika kabinələri, şahmat sinfi, müasir texnologiyalarla təmin olunmuş kompüter otağı, elektron lövhələr, şagirdlərin idmanla məşğul olmaları üçün idman zalı, hərbi-vətənpərvərlik hissinin yüksəldilməsi üçün hərbi kabinə və ən əsası təhsildə şagirdlərin yüksək maraqla öyrəndikləri STEAM kabinəsi quraşdırılıb. Qeyd edim ki, STEAM təhsili müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Belə ki, şagirdlər bu metod vasitəsilə öz düşüncələrinin məhsulunu ortaya qoya bilir, gələcəyin mütəxəssisləri kimi yetişmək imkanı qazanırlar. Bildirmək istərdim ki, STEAM təhsilinin tətbiqi dövlətimiz tərəfindən ölkədə təhsil sahəsində yeniliklərin mənimsənilməsinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür. Əlbəttə ki, bu da müəllim və şagirdlərin təhsildə nailiyyətlərini daha da yüksəldərək keyfiyyət faizini artırır. Qeyd edək ki, Həmzəlidə yeni kənd mərkəzində nümayəndəlik, klub, kitabxana, poçt və rabitə evi, tibb məntəqəsi də istifadəyə verilib. Yaradılan bu şərait kənd sakinlərinin müxtəlif xidmət sahələrindən səmərəli istifadəsinə, onların asudə vaxtlarını rahat keçirmələrinə şərait yaradıb. Kənd sakinləri əvvəlki dövrlərdə kommunal xərclərini və digər ödənişlərini ödəmək üçün rayon mərkəzinə və digər kəndlərə getməli olduqları halda artıq bu gün vaxt itirmədən bir neçə dəqiqəyə kənddə rahatlıqla ödəniş edə bilirlər. Kənddə köhnə, palçıqlı torpaq yollara asfalt salınaraq yenidən qurulub. Belə uğurlu sosial siyasətin həyata keçirilməsi, həmçinin vətəndaş məmnunluğunu təmin edib.

Daha sonra kəndin ağbirçəyi ***Gülizar Cəfərova*** ilə həmsöhbət olduq. O deyir ki, vaxtilə qazımız, işığımız fasilələrlə verilirdi, yollarımız bərbad vəziyyətdə idi. Çox şükür, bu gün kəndimizdə çox işlər görülüb. Daim işığımız, qazımız, rahat yaşayışımız var. Dolanışığımız gündən-günə yaxşılaşır. Bütün bunlar dövlətimizin vətəndaşlarına qayğısının ifadəsidir.

Həmzəlidən, onun bugünkü müasir səviyyəsindən, insanlarının minnətdarlıq hissləri ilə dolu söhbətlərindən aldığımız təəssüratlarla üz tuturuq Axura kəndinə. Bu kənddə yaşayan ***Əkbər Kərəmov*** bildirdi ki, 2023-cü ildə dövlətimiz tərəfindən kənd mərkəzinin, ambulatoriyanın yenidən qurulması, eyni zamanda yolumuza 7,1 kilometr yenidən asfalt örtüyünün çəkilməsi kənd sakinlərinin ürəyincə oldu.



Kənd sakini ***Əhməd İsgəndərov*** da öz ürək sözlərini ifadə edərək dedi ki, ölkəmizin iqtisadi gücü artdıqca onun vətəndaşlarının da həyat səviyyəsi yüksəlir. Rayon mərkəzləri, kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilir. Belə tədbirlərdən yaşadığım Axuraya da pay düşüb. Ona görə də dövlətimizə minnətdarlığımı bildirirəm.

Kənd sakinlərindən ***Adilə Kazımova*** bizi Axura dağlarının kəklikotusundan dəmlədiyi çaya qonaq etdi. O da kəndin hüsnünə gələn gözəllikdən ağızdolusu danışıb dedi ki, dövlət qayğısını həmişə hiss edirik. Bir vaxtlar bu kəndin yolu, izi yox idi, bəzi avtomobillərdən başqa buraya heç nə çıxa bilmirdi. Yağış ki yağdı, qış ki gəldi, günümüz qara olurdu. Yası, toyu, xəstəsi olanlar naümid qalırdı. Şükür Tanrıya, indi yolumuz, izimiz, məktəbimiz, xəstəxanamız, hər cür şəraitimiz var.

Bu dağlar hər zaman bizi düşməndən, soyuqdan, borandan, seldən, tufandan qoruduğu kimi oz qoynunda bitən şəfalı bitkiləri ilə də dərdlərimizə dərman olub. Yaşlı insanlar yaxşı xatırlayar, əvvəllər bir evdə xəstə olanda həkim tapmaq imkanımız çox az idi. Türkəçarə vasitələrlə bir çox xəstəliklərin qarşısını almağa çalışardıq. Ən çox da soyuq fəsillərdə kəklikotu çayı soyuqdəymə xəstəliklərində köməyimizə yetirdi.

Kənddə qoçaqlığı ilə tanınan ***Gülsüm Qafarova*** ailə təsərrüfatı ilə məşğuldur. Onunla söhbətimiz həyətyanı sahələrində saldıqları meyvə bağında oldu. Gülsüm xanım müəllim işləsə də, yay tətilində öz bağlarında yetişən meyvələri yığıb qurudub satışa çıxarmaqla məşğuldur. O bildirdi ki, 2019-cu ildən bu işlə məşğuldurlar. Meyvə qurutmaq üçün xüsusi aparat alıblar. Qazancları da yaxşıdır. Hazırladıqları məhsulları muxtar respublikanın iri marketlərində satışa çıxarırlar.

Ağsaqqal ***Əhməd İsgəndərov*** qeyd etdi ki, bu kəndin qədim tarixi var. Bir ziyalı kimi deyə bilərəm ki, sovetlər dönəmində bu kənd də Naxçıvanın digər kəndləri kimi inkişafdan geri qalmışdı. Amma müstəqillik qazandıqdan sonrakı illərdə ilk dəfə 2014-cü ildə təmir-bərpa işləri başladı. Məktəb, xidmət mərkəzi və digər sosial obyektlər quruldu. Ötən ildən isə yenidən təmir bərpa işləri başlayıb. Dövlət başçısı hər addımbaşı hər bir vətəndaşın Prezidenti olduğunu sübut edir. Kəndimizin hər bir sakini bu qayğını görür və dövlət siyasətindən bəhrələnir. Kimi ailə təsərrüfatı yaradır, kimisi yeni iş yeri açır. Hər bir sakin öz əməyinin qarşılığını görür. Kənddə aparılan yenidənqurma işini alqışlayırıq. Yaradılan, qurulan nə varsa, hər biri sakinlərin həyatını yaxşılaşdırmaq üçündür. Kəndin səfalı havası, gözəl torpağı, müasir görünüşü burada məskunlaşan və qonaq olan hər kəsin könlünü fərəh hissi ilə doldurur.

**✍ Aytac CƏFƏRLİ**

## Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “14 iyul 1969-cu il: Azərbaycanın müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı” mövzusunda tədbir keçirilib.*



Kəngərli Rayon İcra Hakimiyyətində keçirilmiş tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri Asiman Abbasov çıxış edərək ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində həyata keçirilmiş tədbirlər və görülmüş işlər barədə danışıblar.

Sonra Müvəkkil aparatının əməkdaşı Həsən Həsənovun “Heydər Əliyev və insan hüquqları” mövzusunda çıxışı dinlənilib.

Sonda videoçarx nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Naxçıvan Dövlət Universitetində IBM şirkətinin təqdimatı olub

Ali təhsil ocağında IBM üzrə təmsilçi Jan Lauda, IBM üzrə universitet səfiri Hayri Sayı ilə onlayn görüş keçirilib. Universitetin rektoru, dosent Elbrus İsayev hər kəsi salamlayıb. Rektor IBM şirkəti ilə keçirilən görüşün ali təhsil ocağında qurulan Texnoparkın fəaliyyət istiqamətində, universitetdə mühəndislik ixtisaslarında dərs deyən müəllimlərin təcrübi peşə vərdişlərinin formalaşmasında mühüm əhəmiyyət daşıyacağını önə çəkib. Qeyd edilib ki, ali təhsil ocağında IBM üzrə müxtəlif proqramlar icra olunacaq, bu sahə üzrə laboratoriyalar fəaliyyət göstərəcək. Elbrus İsayev bu sahə üzrə biliklərin nəinki universitet, həmçinin Naxçıvan üçün mühüm töhfələr verəcəyini diqqətə çatdırıb.

IBM üzrə təmsilçi Jan Lauda təqdimatla çıxış edərək qeyd edib ki, IBM (International Business Machines) kompüter avadanlığı və proqram təminatı istehsalı və satışı üzrə ixtisaslaşmış beynəlxalq texnologiya şirkətidir. 1911-ci ildə əsası qoyulan IBM dünyanın ən qədim texnologiya şirkətlərindən biridir və sənayedə innovasiya və liderliyin uzun tarixinə malikdir. 170-dən çox ölkədə mövcudluğu və dünya üzrə 300.000-dən çox işçisi ilə dünyanın ən böyük informasiya texnologiyaları şirkətlərindən biri olan IBM qiymətli qlobal brendlər arasındadır. IBM gəlir baxımından ən yaxşı şirkətlər arasında yer alır və minlərlə patent də daxil olmaqla güclü əqli mülkiyyət portfelinə malikdir. Vurğulanıb ki, şirkət dünyanın 110-dan artıq ölkəsində 334 kurs olmaqla, bir milyon sertifikat təqdim edib.



Tədbirdə “IBM Skills Network” platformasından qeydiyyatdan keçmə və bu platformadan istifadə qaydaları izah olunub. Bildirilib ki, müəllimlər dərslərində “Skills Network” kataloqundakı kurs və layihələrdən istifadə edə və ya tələbələrinə özləri araşdırma və öyrənmə imkanı verə bilərlər. Bu kataloqda bütün səviyyələr üçün kurslar və layihələr mövcuddur və onları portalınıza bir kliklə quraşdıra bilərsiniz. Platformada xüsusilə proqramlaşdırma, kibertəhlükəsizlik, süni intellekt, maşın öyrənməsi, data science və sair sahələrinə aid kurslar mövcuddur. Jan Lauda IBM kurslarına daxil olmaq qaydaları haqqında ətraflı məlumat verərək platformadan istifadənin faydalarından danışıb.

Görüşdə, həmçinin o da qeyd edilib ki, Skills Network laboratoriyalarına heç bir asılılıq, yükləmə və quraşdırma prosesi olmadan bir kliklə daxil olmaq mümkündür. Bu zaman hər bir istifadəçinin irəliləyişi qeyd olunur, istədiyiniz zaman kurslara qoşula, dayandıra, hətta üzərindən 1 ay keçsə belə qaldığınız yerdən kursa davam edə bilərsiniz. Vurğulanıb ki, bu platformadan istifadə etməklə müəllimlər və tələbələr təcrübi bacarıqlarını inkişaf etdirəcəklər.

Rektor sonda IBM üzrə təmsilçi Jan Lauda, IBM üzrə universitet səfiri Hayri Sayıya öz təşəkkürünü ifadə edib. Görüşdə birgə əməkdaşlıq məsələləri, bu sahədə peşəkar təcrübə mübadiləsi barədə müzakirə aparılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Dövlət Yol Polisi Naxçıvan şəhərində reydlər keçirir

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən Naxçıvan şəhərinin müxtəlif istiqamətlərində, hərəkətin daha intensiv olduğu küçə və prospektlərdə nizamlanmayan piyada keçidlərində hərəkət edən piyadalara yol verməyən, sürət həddini aşan sürücülərə qarşı reydlər keçirilir.





Qeyd edək ki, bu gün mediada Naxçıvanda avtoxuliqanlıq və yol hərəkəti qaydalarının ciddi pozulmaları ilə bağlı videolar yayılıb.

**Xəbərlər şöbəsi**

# Ölkə və beynəlxalq miqyaslı yarışlardan 95 medal

*Azərbaycanda sağlam, vətənpərvər, savadlı, milli dəyərlərə sadiq gənclik modeli formalaşdırılıb. Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq prinsipi əsasında yetişən gənclərimiz dövlət, xalq qarşısında ali vəzifələr yerinə yetirir, ölkəmizin inkişafına töhfə verməyə çalışırlar. Ölkə başçısının rəhbərliyi ilə gənclər və idman siyasətinin uğurlu icrası Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da özünü təcəssüm etdirir. Gənc nəslin sağlam həyat tərzinə cəlbi, onların vətənpərvər ruhda formalaşdırılması, müxtəlif sahələrdə inkişafı istiqamətində məqsədyönlü addımlar atılır.*



Ötən ay ərzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunması, bədən tərbiyəsi və idmanın inkişafı, gənclərin vətənpərvər ruhda formalaşdırılması, onların cəmiyyətdəki aktivliyini artırmaq və şəxsi inkişafına dəstək olmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilib, yeni nailiyyətlər qazanılıb.

"Heydər Əliyev İli" ilə əlaqədar gənc dövlət qulluqçuları arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "İstedadlı uşaqlar-2023" festivalı reallaşıb. 5 iyun – Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar Naxçıvan şəhərindəki "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksinin ərazisində gənclər tərəfindən ekoloji təmizlik aksiyası keçirilib. Naxçıvan şəhərində 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə gənclərin Vətən müharibəsi iştirakçıları ilə görüşü təşkil olunub, bununla yanaşı, hərbi hissələrdən daha birində zabit və əsgərlərimizlə görüş keçirilib.



2023-2024-cü illər lisenziyalaşdırma mövsümündə UEFA-nın klub yarışlarında və Azərbaycan Premyer Liqasında iştirak etmək üçün "Araz-Naxçıvan" PFK-ya lisenziya təqdim olunub, klubun üzvləri isə lisenziya menecerliyi üzrə sertifikata layiq görülüblər. Muxtar respublikada fəaliyyət göstərən nazirliklər arasında "Heydər Əliyev kuboku" uğrunda futzal turniri böyük maraqla qarşılanıb və 1 aya yaxın davam edən yarışın oyunlarını yüzlərlə idmansevər birbaşa tribunadan izləyib. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təşkil edilən və 100-ə yaxın gimnastın fərdi və qrup halında bədii kompozisiyalarla, müxtəlif rəqs nömrələri ilə tamaşaçıların qarşısına çıxış etdiyi "Gimnastika hamı üçün" festivalı da maraqla qarşılanıb. Azərbaycan Gimnastika Federasiyasının heyəti tərəfindən bədii gimnastika və gimnastika hamı üçün idman növlərində ustad dərsləri reallaşıb. Yaşı 18-dən yuxarı olan həvəskar idmançılar arasında stolüstü tennis üzrə "Heydər Əliyev İli"nə həsr olunmuş muxtar respublika açıq birinciliyi keçirilib. Genişterkibli idmançı heyətinin tibbi müayinəsi reallaşıb, idman müəssisələrində yoluxucu xəstəliklərə qarşı ənənəvi qaydada həyata keçirilən dezinfeksiya işləri davam etdirilib.

İyun ayında Naxçıvan idmançıları ölkə və beynəlxalq miqyaslı yarışlardan 28-i qızıl, 29-u gümüş, 38-i bürünc olmaqla, ümumilikdə, 95 medal qazanıblar. Gürcüstanın Kutaisi şəhərində yeniyetmə boksçular arasında keçirilən beynəlxalq turnirdə Elbrus Kərimli və Ucal Musayev bürünc medala layiq görülüblər. Batumi şəhərində "İnternational Batumi Open" beynəlxalq karate turnirində idmançılarımız 5-i qızıl, 3-ü gümüş və 4-ü bürünc olmaqla, ümumilikdə, 12 medal qazanıblar. Atletika üzrə böyüklər arasında Azərbaycan çempionatında Əmrah Nağıyev 1500 metr və 3000 metr məsafələr üzrə ikinci, Aysu Abbasova isə 1500 metr məsafədə üçüncü, 3000 metr məsafədə ikinci yerə sahib çıxıb. Bundan əlavə, Əmrah Əməkdar məşqçi Əfqan Səfərovun xatirəsinə həsr olunmuş atletika üzrə 26-cı beynəlxalq turnirini (2 qızıl) və "Qurtuluş yürüşü 2023" marafonunu qalib kimi tamamlayıb, Aysu isə 2006-2007-ci il təvəllüdlü idmançılar arasında atletika üzrə ölkə yay birinciliyində 2 qızıl medal qazanıb. Ölkə yay birinciliyində digər təmsilçilərimiz 3 gümüş medal əldə ediblər. 2023-cü ildə göstərdiyi nəticələr və gələcək perspektivləri nəzərə alınmaqla atletlərimiz Aysu Abbasovaya və Onur Bayramova Azərbaycan Atletika Federasiyasının fərdi təqaüdü təyin olunub. Bakı şəhərində para-stolüstü tennis üzrə böyüklərin Azərbaycan çempionatında Camal Həsənov həm fərdi, həm də komanda yarışlarında ikinci olmaqla gümüş medallara yiyələnib. 8-18 yaşadək oğlan və qızlar arasında Azərbaycan çempionatında Seyid Hüseyn 16 yaşadək oğlanlar arasında birinci yerə sahib çıxmaqla ölkə çempionluğu sevincini yaşayıb. Yasin Seyidov (10 yaşadək oğlanlar) və ötən il 16 yaşlılar arasında birinci olan Nazlı Hümbətova (16 yaşadək qızlar) bu dəfə ikinciliklə kifayətləniblər. Ayxan Əliyev isə 18 yaşadək şahmatçılar arasında üçüncü olub. MMA, pankration və qrepplinq üzrə Azərbaycan çempionatı və birinciliyində çıxış edən id-



mançılarımız tərəfindən 11-i qızıl, 4-ü gümüş və 14-ü bürünc olmaqla, ümumilikdə, 29 medal qazanılıb. Məktəblilər arasında boks üzrə zona birinciliklərinin final mərhələsində Haqverdi Həsənov gümüş, Fikrət Abbaslı isə bürünc medala sahib çıxıb. Uşaq Paralimpiya Kubokunun pauerliftinq yarışlarında Həsən Qasımov qızıl, Mehdi Quliyev gümüş, stolüstü tennisdə isə Hüseyn Əliyev gümüş, Şəfa Abdullayeva isə bürünc medalçı olub. Bakıda keçirilən açıq karate turnirində isə 5-i qızıl, 10-u gümüş, 13-ü bürünc olmaqla, ümumilikdə, 28 medal qazanılıb. "Araz-Naxçıvan"ın 15 yaşadək futbolçulardan ibarət komandası AFFA U-15 liqasının final mərhələsində iştirak edib.

Hesabat ayı ərzində muxtar respublikanın bölgələrində müxtəlif idman növləri üzrə rayon (şəhər) birincilikləri, intellektual oyunlar, vətənpərvərlik motivli film nümayişləri, yaradıcılıq müsabiqələri, "Heydər Əliyev İli"nə, Qurtuluş Gününə, Silahlı Qüvvələr Gününə və şəhidlərimizin xatirəsinə həsr olunan tədbirlər təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# "Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər" kitabının təqdimatı olub



*AMEA Naxçıvan Bölməsində bu yaxınlarda nəşrdən çıxmış "Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər" kitabının təqdimatı olub.*

Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent Aytən Cəfərovanın tərtibçisi olduğu kitabda Naxçıvan Muxtar Respublikası ərazisində işlədilən paremioloji vahidlər toplanmışdır. Paremioloji vahidləri toplamağın, sistemləşdirməyin uzunmüddətli axtarış və böyük diqqət tələb etdiyini söyləyən bölmə sədri vurğulayıb ki, kitabdakı örnəklərin bir qismi sırf Naxçıvan bölgəsi üçün xarakterik olub, məhəlli səciyyə daşıyır. Vurğulanıb ki, yeni kitab Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərlinin kitaba yazdığı ön sözlə başlayır. Çıxışının sonunda İsmayıl Hacıyev Aytən Cəfərovanı yeni kitabının çapdan çıxması münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tədbirdə "Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər" kitabı haqqında məruzə edib. Məruzəsində Azərbaycanda folklor materiallarının toplanması və nəşri məsələlərindən söz açan alim AMEA Naxçıvan Bölməsinin fəaliyyəti dövründə İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda folklorumuzla bağlı aparılan tədqiqatlara və əldə olunan uğurlara nəzər salıb.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin aparıcı elmi işçisi, dosent Zülfiyyə İsmayıl "Naxçıvan folklorşünaslığına dəyərli töhfə" mövzusunda məruzə edib. Məruzəçi Aytən Cəfərovanın özünəxas tədqiqatçılıq bacarığından, folklor nümunələrinin toplanmasındakı əməyindən danışıb.

Sonda kitabın müəllifi, dosent Aytən Cəfərova çıxış edərək tədbirin təşkilinə və fəaliyyətinə göstərilən diqqətə görə minnətdarlıq edib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Şəhidlərin xatirəsinə həsr olunmuş üzgüçülük yarışı

İlham Əliyev adına Olimpiya İdman Kompleksinin Üzgüçülük Mərkəzində Vətən müharibəsi şəhidləri Raqib Hüseynov, Fuad Əlizadə, Elnur Zeynalov və Pərviz Məmmədzadənin xatirəsinə həsr olunmuş yeniyetmə və gənc oğlanlar arasında üzgüçülük üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.



Əvvəlcə ölkəmizin azadlığı və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın xatirəsi bir dəqiqəlik sükutla anılıb. Çıxış edənlər Vətən uğrunda döyüşlərdə böyük şücaət göstərən şəhidlərimizin gənc nəslə örnək olduğunu və onların daim böyük hörmətlə xatırlandığını qeyd ediblər. Yarışa fəxri qonaq qismində dəvət olunmuş şəhid ailələrindən Şəfa Əliyeva təşkilatçılığa görə təşəkkürünü ifadə edib, qəhrəmanlarımızın tanıdılması istiqamətində görülən işlərin sevindirici olduğunu vurğulayıb. Sonra şəhid valideynlərinə yarışdan xatirə olaraq Fəxri fərmanlar təqdim edilib.

Birincilikdə 2 yaş qrupu üzrə 25 idmançı öz qüvvəsini sınayıb. Onlar üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafədə yarışıblar. Nəticələrə əsasən 2008-ci il təvəllüdlü idmançılar arasında Anar Həsənov, Məhərrəm Nəsirli, Səməd Rzayev, 2009-2010-cu il təvəllüdlü idmançılar arasında isə Mustafa Əzimov, İbrahim İsmayılzadə və Yusif Mahmudov müvafiq olaraq birinci, ikinci, üçüncü yerlərə layiq görülüblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Taxıl biçinindən sonra sahələrin yandırılması qadağandır!

Operativ məlumatlara əsasən Naxçıvan Muxtar Respublikasında 21162 hektar sahədə payızlıq və yazlıq taxıl əkinləri həyata keçirilib. Hazırda əkin sahələrinin 55 faizində biçin başa çatıb.



Biçindən əvvəl taxıl yığımının itkisiz və vaxtında həyata keçirilməsi, o cümlədən yanğın təhlükəsi yaradacaq halların qarşısının alınması ilə bağlı maarifləndirmə tədbirləri aparılsa da, həmçinin sözügedən məsələlərin tənzimlənməsi məqsədilə aidiyyəti qurumların əməkdaşlarından qərargah təşkil edilsə də, bəzi sahələrdə yanğın müşahidə olunur. Bəzən bir sıra istehsalçılar düşünür ki, biçindən sonra sahələrin yandırılması torpaqda olan alaq otlarının, o cümlədən zərərverici həşəratların məhvi üçün əlverişli üsuldur.

Bildiririk ki, sahələrdə baş verən yanğın ətraf mühitə zərər verməklə torpağın məhsuldarlığını aşağı salır, torpağın həyat qabiliyyəti zəifləyir, illər ərzində formalaşmış faydalı mikroorqanizmlər məhv olur ki, onun da bərpası üçün əlavə resurslar və uzun müddət tələb olunur.

Yüksək temperaturun torpağın üst qatına sistematik təsiri humus ehtiyatını, torpaq biotasını məhv edir və nəticədə, torpağın fiziki-kimyəvi xassələri və mexaniki strukturu dəyişir. Vahid sahədə samanın 30-40 saniyədə yanmasına baxmayaraq, bu qısa müddət torpağın üst qatının 360 dərəcəyə qədər qızmasına kifayət edir. Bu temperaturda torpağın 0-5 santimetr qatında humusun yanması, 10 santimetr qatında isə suyun buxarlanması baş verir. Kövşənliyin yandırılması zamanı humus itkisi hektara 1,3 ton təşkil edir. Bir hektar sahədə 1 ton samanın yandırılması nəticəsində 4,0-4,5 kiloqram azot, 2,0-2,5 kiloqram fosfor, 8-10 kiloqrama qədər kalium elementi itirilir ki, bu itkini kompensasiya etmək üçün torpağın hər hektarına 10-15 ton üzvi gübrə verilməsi tələb olunur. Eyni zamanda biçindən sonra taxıl sahələrinin yandırılması növbəti ildə həmin sahədə becəriləcək bitkilərin məhsuldarlığını 20-30 faiz azaldır, fermer həmin sahədən əvvəlki ilə müqayisədə daha az məhsul götürür.

Bu səbəbdən artıq biçini yekunlaşdıran istehsalçıların nəzərinə çatdırırıq ki, taxıl biçinindən sonra sahələrin yandırılması qadağandır. Belə ki, bilərəkdən yanğın təhlükəsi törətmiş istehsalçılar qanunvericilikdə müəyyən edilmiş qaydada inzibati məsuliyyət daşıyırlar. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsinə əsasən əkin yerlərinin yandırılması qadağan edilib. Bu qadağanın tətbiqində məqsəd əkinəyararlı torpaq sahələrinin münbitliyini qorumaq, ekoloji mühitə vurulan zərərin qarşısını almaq, kənd təsərrüfatında məhsuldarlığı yüksəltməkdir.

İnzibati Xətalar Məcəlləsinin 244-1-ci maddəsinə əsasən əkin yerini yandıran fiziki şəxslər 400 manatdan 600 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək, hüquqi şəxslər isə 5000 manatdan 6000 manatadək məbləğdə cərimə olunacaqlar.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi məhsul istehsalçılarına taxıl sahələrindən samanı yandırmadan çıxarmağı, yaxud xırdalayaraq mulça halında əkin sahələrinə verib şum və digər torpaq becərmə əməliyyatları aparmağı tövsiyə edir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Məmmədov Orhan Əbülfəz oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Seyidov Miryasin Mirabbas oğlunun adına verilmiş JN-400^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, K-n Seyidov küçəsi, 7/18 ünvanında Qazıbəyov Bahadur Yusif oğluna məxsus mənzilin 538 inventar nömrəli texniki pasportu və qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Kükü kəndində yaşamış Axundov Abış Dadaş oğlunun adına olan 207^A və 207^C inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndi, 6-cı küçə, döngə 1, ev 9 ünvanında Abbasova Gülbahar Yunis qızının adına verilən MH-0047493 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Bülbül Quliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 423